“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 94(479.24)**

**SARA HACIYEVA**
AMEA Naxçivan Bölməsi
hacyevasara@ yahoo.com
**NİLUFƏR AĞAYEVA**
“Naxçivan” Universiteti
nuraagaoglu@gmail.com

# XIII-XV ƏSRLƏRDƏ NAXÇIVANDA KƏND TƏSƏRRÜFATI

*Məqalədə XIII-XV əsrlərdə Naxçıvanda kənd təsərrüfatının vəziyyəti araşdırılmışdır. Qeyd edilmişdir ki, dövrün çətinliklərinə baxmayaraq əhali kənd təsərrüfatı məhsullarının istehsalına mühüm əhəmiyyət vermişdir.* Kənd təsərrüfatının inkişafı *hər zaman olduğu kimi bəhs olunan dövrlərdə də müstəsna rola malik sahələrdən biri olaraq əhalinin maddi tələbatının ödənilməsində mühüm əhəmiyyət kəsb etmişdir.*

**Açar sözlər:** *Naxçıvan, kənd təsərrüfatı əkinçilik, maldarlıq, bağçılıq və bostançılıq*

Məlumdur ki, hələ qədim və orta əsrlər dövründən Naxçıvanda əhali təsərrüfatın digər sahələri ilə yanaşı XIII-XV əsrlərdə də kənd təsərrüfatının bir çox sahələri ilə məşğul olmuşlar. Burada əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq və s. əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycan xalqının təsərrüfat həyatının ənənəvi sahələrindən olan əkinçilik XIII-XV əsrlərdə də öz əvvəlki əhəmiyyətini saxlamışdı. Əlverişli iqlim şəraiti, münbit torpaq örtüyü və nəhayət, əsrlər boyu təşəkkül tapmış zəngin istehsal vərdişləri Naxçıvan əhalisinin böyük əksəriyyətinin kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olunmasına imkan verirdi. Lakin çox təəssüf ki, tarixin bir çox zamanlarında olduğu kimi, XIII-XV əsrlərdə də bölgədə cərəyan edən müharibələr bu sahənin inkişafına ciddi əngəl törətmişdir.

Naxçıvanın təbii-coğrafi şəraiti burada yarımoturaq və oturaq həyat tərzi keçirən əhalinin təsərrüfat həyatında əhəmiyyətli rol oynayırdı. Bu diyarın sakinləri bogənin təbii ehtiyatlarından istifadə edərək təsərrüfat həyatlarına mühüm təsir göstərən kənd təsərrüfatı məhsullarının istehsalına üstünlük verirdilər. Bunun əsas səbəbi isə təbii ki, bu sahədən əldə olunan məhsullara insanların zəruri tələbatının ödənilməsi idi. XIII əsrin əvvəllərində Azərbaycan Atabəylərinin hakimiyyəti dövründə ölkədə, o cümlədən də Naxçıvanda əhalidən bir çox adda vergilər yığılsa da, digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da ümumi vəziyyət o qədər də acınacaqlı olmamışdır. Z.Bünyadov o dövr Azərbaycan, həmçinin Naxçıvan bölgəsinin həyat şəraitini və dövlətin ölkədə apardığı siyasi, iqtisadi, mədəni prosesləri təhlil edərkən yazır ki, Azər-

**Məqalə tarixçəsi:**
Göndərilib: 21.02.2019, qəbul edilib: 12.03.2019

baycan Atabəylərinin hakimiyyəti dövründə ölkənin bir çox şəhərlərində müxtəlif səciyyəli binaların intensiv inşası aparılmış, iqtisadiyatın inkişafına diqqət göstərilmişdi [1, s. 189].

Bu isə təbii ki, ölkədə siyasi sabitliyin mövcud olması ilə bağlı idi. O dövrdə Naxçıvan Azərbaycan Atabəyləri dövlətinin mərkəzi şəhərlərindən biri idi. Buna görə Naxçıvan çox böyük bir inkişaf yolu keçmişdir. Naxçıvanda olan sabitlik həmin dövrdə kənd təsərrüfatının müəyyən sahələrinin inkişafına da şərait yaratmışdı.

Naxçıvanın kənd təsərrüfatı məhsulları və meyvələri o dövrlərdə çox məşhur olduğundan bölgədəki bazarlarda rəğbət qazanmışdı. Azərbaycan Atabəyləri dövründə, Naxçıvanda dünyada ən gözəl və ən faydalı üzüm, pambıq və dənli bitkilər (buğda, arpa) və s. yetişdirilirdi [10, s. 101-102]. Lakin Atabəylər dövründə Naxçıvan və ona yaxın bölgələr nə qədər böyük bir iqtisadi inkişaf yoluna qədəm qoysa da, XIII əsrin 20-ci illərindən başlayaraq monqol hücumları bölgənin iqtisadi çətinliyə düşməsinə səbəb olmuş və demək olar ki, əhali ən çətin illərini yaşamağa başlamışdır. Çox təəssüf ki, bu sabitlik həm Atabəylər dövlətinin zəifləməsi, həm də monqolların Azərbaycana, o cümlədən də Naxçıvana hücumu nəticəsində pozulmuşdu. Monqolların işğal və istila etdikləri digər ərazilər kimi, Naxçıvan bölgəsində və bölgəyə yaxın yerlərdə də kənd təsərrüfatı talan edilmiş, əkin yerləri tapdalanmış, xırmanlar yandırılmışdı.

XIII əsrin ortalarında Azərbaycanın bir çox şəhərlərini gəzmiş səyyah Vilhelm Rubruk Naxçıvan şəhərinin vəziyyətini təsvir edərkən yazırdı ki, monqollar şəhəri demək olar ki, boş səhraya çevirmişdilər. Monqol işğallarının ağır nəticələrinə baxmayaraq Azərbaycanın digər şəhərləri kimi, Naxçıvan şəhəri də XIII əsrin sonlarından başlayaraq tədricən bərpa olunmağa başlamışdı. Həmdullah Qəzvini (XIV-əsr) Naxçıvan tüməninin 5 şəhərinin olduğunu qeyd edir ki, onlardan biri də Naxçıvan şəhəri idi. Naxçıvan torpaqları tarixən olduğu kimi, bəhs olunan dövrdə də səltənət ailəsi, şahzadələr və iri feodalların əlində cəmləşmişdi. Əlverişli təbii şərait Naxçıvanda təsərrüfatın bütün sahələrinin inkişafına imkan yaradırdı. Buna ən başlıca olaraq Naxçıvanın havasının təmizliyi, suyunun bolluğu, torpağının münbitliyi şərait yaradırdı. O dövr mənbələri, həmçinin Naxçıvanda zəngin bağların, meşələrin, bol su ehtiyatının olduğunu xəbər verir [17, s.54]. Naxçıvan diyarı ərazisinin böyük bir hissəsi əkinçilik üçün yararlı olduğuna görə burada buğda, arpa, darı, çəltik, pambıq, tütün, mərcimək, noxud əkib-becərir, bağçılıq və bostançılıqla məşğul olurdular. Kənd təsərrüfatında natural təsərrüfatın üstünlüyü şəraitində ticarət əlaqələrinin zəifliyi, siyasi həyatda hökm sürən qeyri-sabitlik hər bir kəndli ailəsini özünün ən zəruri ərzaq məhsulları, ilk növbədə isə taxıl məhsulları ilə təmin etmək zərurəti qarşısında qoyurdu. Məhz, bunun nəticəsi idi ki, taxılçılıq yalnız kənd yerlərində deyil, əlverişli imkanlara malik olan şəhərətrafı bölgələrdə də əhalinin təsərrüfat həyatının yaxşılaşdırılması üçün mühüm əhəmiyyət kəsb edirdi [7, s. 101-106].

Məlumdur ki, əhalinin ərzaq tələbatını ödəmək üçün ilk növbədə əkinçiliyin inkişafına üstünlük verilir. Orta əsrlər dövründə də Azərbaycanın

digər bölgələrində olduğu kimi, Naxçıvanda kənd təsərrüfatının əkinçilik sahəsinə daha çox diqqət göstərilmişdi. Məhz buna görə də Naxçıvan bölgəsi özünün yüksək əkinçilik mədəniyyəti, xüsusilə taxılçılıq – buğda yetişdirilməsi ilə şöhrət qazanmışdı [21, s. 38]. Əkinçilikdə ən önəmli yeri taxılçılıq tuturdu. Taxılçılıqla demək olar ki, əhalinin əksəriyyəti məşğul olurdu. Hətta bəzən maldarlar da öz şəxsi istifadələri üçün taxıl əkirdilər. Naxçıvan diyarında taxılçılıq təsərrüfatında dənli bitkilərdən buğda və arpa əkilməsi əsas yer tuturdu. Qədim dövrlərdən əkilib becərilən darı, tez yetişməsinə və məhsuldarlığına görə başqa dənli bitkilərdən fərqlənsə də özünün keyfiyyət tutumuna görə bir o qədər də əlverişli olmadığı üçün onun əkilib becərilməsi o qədər də sərfəli hesab edilmirdi. Lakin darıdan fərqli olaraq taxıl bitkilərindən hesab olunan çovdarın becərilməsinə üstünlük verilirdi [18, s. 37-43].

Qeyd etmək lazımdır ki, orta əsrlər dövründə Azərbaycanda bölgələrdən asılı olaraq bir neçə əkinçilik sistemindən istifadə olunurdu. Dincəqoyma, növbəli, herik, terras, tala, çala əkinçilik sistemləri daha geniş yayılmışdı. Torpağın becərilməsi üçün qoşqu gücünə hərəkətə gətirilən müxtəlif kotan növlərindən istifadə olunurdu. Dağ və dağətəyi zonalarda metal hissəli ağac kotan tətbiq edilirdi. Bir-iki cüt öküz qoşulan bu kotanla gün ərzində hektarın dörddə biri qədər yeri şumlamaq olurdu. Mürəkkəb, təkmilləşdirilmiş ağır və ya qara kotan əsasən düzən bölgələrdə tətbiq olunurdu. Ona adətən üç-dörd cüt öküz qoşulurdu. Belə kotanla gün ərzində bir hektaradək yeri şumlamaq olurdu. Əsas biçin aləti çin və oraq olmuşdur. Onlar öz forma və quruluşlarına görə bir-birinə çox oxşasalar da, çin-dişli, oraq isə dişsizdir [2, s. 335]. Naxçıvanın düzənlik ərazilərində təbii otlaqlar olmadığından əhali süni biçənəklər yaratmağa çalışırdı. Şumlanmış sahələrdə xüsusilə ot-yonca əkirdilər. Yonca atlar üçün ən yaxşı yem sayılırdı. Qeyd edildiyi kimi, öküzlərdən və kəllərdən torpağın şumlanmasında və qoşqu məqsədi ilə istifadə edilirdi. Atlardan və qatırlardan minik kimi istifadə olunurdu

Naxçıvan ərazisində taxıl biçimində "mərəndi" adlı alətdən də istifadə edilmişdir. Onun dişsiz tiyəsi nisbətən iri olduğu üçün daha çox taxıl sahəsini biçmək olurdu. Biçinçi biçin zamanı, sol əlinə sümükdən, ağacdan və ya göndən hazırlanmış barmaqlıq geyər, qoluna dolaq-qolçaq taxar, belinə isə döşlük bağlardı. Əkin seyrək, alçaq və ya alaqlı olanda biçin zamanı dəryazdan da istifadə edilirdi. Yığılmış məhsulu xırmanlarda ən geniş yayılmış döymə alətləri olan vəl və carcarla döyürdülər. Taxılı döymək üçün xırmana sərilən dərzi qaramal və ya atlara da ayaqlatdırırdılar. Uzun müddət saxlamaq üçün taxılı xüsusi qazılmış torpaq quyulara, hörmə çubuq anbarlara, içərisi ovulmuş və ya yonulmuş quru ağacdan düzəldilmiş kodlara, peyin qarışdırılmış palçıqdan silindrik, habelə dairəvi formada hazırlanan kəndilərə, irihəcmli təsərrüfat küplərinə yığırdılar. Taxılın nisbətən qısa müddətə saxlanılması və bir yerdən başqa yerə daşınması üçün çuval, xurcun və dağarcıqlardan istifadə edilirdi [2, s. 336].

Kənd təsərrüfatında natural təsərrüfatın üstünlüyü şəraitində ticarət əlaqələrinin zəifliyi, siyasi həyatda hökm sürən qeyri-sabitlik hər bir kəndli ailəsini özünün ən zəruri ərzaq məhsulları, ilk növbədə isə taxıl məhsulları ilə təmin etmək zərurəti qarşısında qoyurdu. Məhz, bunun nəticəsi idi ki, taxılçılıq

yalnız kənd yerlərində deyil, əlverişli imkanlara malik olan şəhərətrafı bölgələrdə də əhalinin təsərrüfat həyatının yaxşılaşdırılması üçün mühüm əhəmiyyət kəsb edirdi [7, s. 101-106]. Bu isə onu göstərir ki, insanlar nəinki kənd yerlərində, həmçinin, şəhər həyatında da təsərrüfatla və xüsusən taxılçılıqla məşğul olurdular. Naxçıvan diyarı dağlıq, dağətəyi və düzən torpaq relyefinə malik olduğundan burada taxıl bitkiləri düzən torpaqlarda süni suvarma, dağlıq ərazilərdə isə dəmyə üsulu ilə yetişdirilmişdi [11, s. 18]. Tədqiqatçıların məlumatlarından aydın olur ki, hər zaman olduğu kimi, taxılçılıq əkinçiliyin əsas sahələrindən biri olmuşdur. Buğda və darı əkilmiş sahələr ölkənin bir çox bölgələrini əhatə etmişdir.

Monqol yürüşlərinədək olan dövrdə Azərbaycan Ön Asiyanın inkişaf etmiş əkinçilik ölkələrindən biri olmuşdur. Kəndlilər ölkə əhalisinin əksəriyyətini təşkil etmişlər. Əkinçilik və maldarlıq kəndlilərin başlıca məşğuliyyəti olmuşdur. Qoyunçuluq və atçılıq maldarlığın əsas sahələrini təşkil etmişdi. Bu dövrdə Muğan, Şirvan, Urmiya, Kür və Araz çayları arasındakı ərazilərdə maldarlıq üçün əlverişli otlaqlar var idi [1, s. 49]. Naxçıvan diyarının kənd təsərrüfatında əkinçilikdən sonrakı yeri maldarlıq tuturdu. Maldarlıq hər zaman olduğu kimi XIII-XV əsrlər dövründə də iqtisadiyyatda əsas rol oynayırdı. Naxçıvan bölgəsinin təbi—coğrafi şəraiti əhalini maldarlıqla məşğul olmağa imkan verirdi. Maldarlıq əhalini həm ağartı məhsulları (süd, qatıq, pendir və s.), həm də sənətkarlıq üçün zəruri olan xammal (yun, dəri və s.) ilə təmin edirdi. Maldarlığın əsas növləri qoyunçuluq, iribyunuzlu mal-qara və atçılıq idi. Maldarlığın daha çox inkişaf edən və faydalı sahəsi qoyunçuluq idi. Bilavasitə kənd təsərrüfatının başqa sahələri ilə məşğul olanlar üçün maldarlıq istehlak məqsədi daşıyırdı. Maldarlıqla müntəzəm məşğul olan kəndlilər üçün isə əmtəə maldarlığı xüsusi əhəmiyyətə malik idi. Köçmə maldarlığı yenə də maldarların əsas məşğuliyyəti olaraq qalırdı.

Lakin XIII əsrin 20-ci illərindən başlayaraq monqolların Azərbaycana yürüşü digər bölgələr kimi Naxçıvanın siyasi-iqtisadi həyatına mənfi təsir etdi. Tarixçi alimlər yazırlar ki, monqollar ilk anlardan başlayaraq becərilən torpaqları zəbt edib otlaqlara çevirdilər. Monqollar əhalinin mal-qarasını, xüsusilə atlarını güclə alıb öz ilxılarına qatdılar. İş o yerə çatdı ki, adamlar son heyvanlarını verib canlarını qurtarmalı oldu. Monqolların iqtisadi siyasəti əkin sahələrinin azalmasına və son nəticədə kəndlilərin həyat səviyyəsinin aşağı düşməsinə səbəb oldu, kənd təsərrüfatı məhsullarının həcmi kəskin şəkildə aşağı düşdü. Monqol köçərilərinin mütəmadi olaraq bir yerdən digərinə köçmələri yararlı əkin sahələrinin mal-qaranın və ilxıların ayaqları altında qalıb xarab olmasına səbəb olurdu. Monqollar kəndlilərin özlərini də ya məhv edir, ya da əsir tutub apararaq onlardan mal-qaranın otarılmasında və ov mərasimlərində istifadə edirdilər. Bu isə Azərbaycanda, o cümlədən də Naxçıvanda kənd təsərrüfatının inkişafına ciddi maneə törədirdi. Təsərrüfatda kəndli əməyi əvəzinə əsirlərin - qulların əməyindən geniş istifadə olunması kənd təsərrüfatına və şəhər həyatına mənfi təsir göstərdi və iqtisadi tənəzzülə gətirib çıxardı. Monqol istilaları köhnə quldarlıq həyat tərzinin möhkəmlənməsinə imkan yaratdı. Azərbaycanın istehsal qüvvələrinə, ilk növbədə kənd təsər-

rüfatına ağır zərbə vurdu. Bəzi hallarda təsərrüfat həyatının canlanması üçün müəyyən tədbirlər görülsə də, istehsal qüvvələrinin inkişafı əvvəlki səviyyəyə çata bilmədi [1, s. 340].

Hələ orta əsrlər dövründən Azərbaycanda, o cümlədən də Naxçıvanda texniki bitki hesab olunan pambıqçılığın inkişafına xüsusi diqqət göstərilmişdi. Bu bölgədə pambıq becərildiyi haqda məlumatlar vardır. Türk səyyahı E.Çələbi də öz əsərində bunu qeyd edərək yazır ki, Naxşivan-Nəqşi-cahan həqiqətən dunyanın ən gozəl şəhəridir”. O, burada 7 nov pambıq bitir, (onlardan zaği, munlayi, zəfərani, ləli, xas, bəyaz və s. növlərin adlarını göstərmişdir) tə’rifə layiq taxıl, xususilə pərinc, buğda, dörd növ arpa yetişdirilir. Şəhərətrafı bostanlarda lətafətli qovun, qarpız və s. becərilirdi. [6, s. 31]. Pambığın müxtəlif növlərinin yetişdirilməsi bu diyarda pambıqçılığın inkişaf etdiyini deməyə əsas verir. Bu ərazinin təbii iqlim şəraiti və torpağı bu bitkinin becərilməsi üçün münbit şərait yaradırdı. Araz çayı boyunca uzanan qırmızı və sarı gilli torpaqlarda becərilən pambıq daha çox məhsul verirdi [25, s. 188].

Naxçıvanda sadaladığımız kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı texniki bitkilərin becərilməsinə də üstünlük verilmişdir. Bunlardan pambıq, tütün, boyaq kökü və s. bitkilər bölgə ərazisində əkilib-becərilirdi [22, s. 39]. Lakin Naxçıvan diyarının özündə və qonşu bölgələrdə tütün məhsuluna tələbatın azlığı onun əkin sahələrinin genişləndirilməsinə imkan vermirdi [13, s. 44]. Bu təbii-iqlim şəraiti, tütünçülüyün daha böyük zəhmət tələb etməsi və nisbətən az gəlir verməsi ilə əlaqədar idi.

Naxçıvanda təbii bitkilərin də kənd təsərrüfatının inkişafında mühüm yeri var idi. Buna misal olaraq boyaqotu-marenanı nümunə göstərmək olar. Azərbaycanda bu bitki qədim zamanlardan əla keyfiyyətli boyaq maddəsi kimi şöhrət tapmışdı [24, s. 117] Görkəmli şərqşünas-alim Z.Bünyadov göstərmişdi ki, Ərəb xilafəti zamanı Arran ixracatının xüsusi maddəsini qızıl boyaq təşkil edirdi [5, s. 151]. Naxçıvanın Azadciran nahiyəsi Şərqin və Avropanın bir çox ölkələrini boyaqotu (marena) ilə təmin edirdi [3, s. 280].

XIV əsrin ikinci yarısı və XV əsrin əvvəllərində yaşamış orta əsrlər Şərqinin gorkəmli səyyahı, coğrafiyaşunası və astronomu Əbdurrəşid əl-Bakuvi ozunun 1403-1404-cu illərdə ərəb dilində yazdığı “Abidə”lərin xulasəsi və qudrətli hokmdarın mo’cuzələri adlı coğrafi əsərində o dövr Naxcıvan haqqında yazır: “ Uzunluq dairəsi - 81°45', en dairəsi - 33°40'-dir. Divarları və içqalası olan Azərbaycanda gözəl şəhərdir. Şəhər düzənliyin ortasında yüksək yerdə bina olunub. Bu yerdən Araz çayı görünür. Bağlı - bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var. Əhalisi nəqqaşlıqda və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır” Həmçinin, elmin müxtəlif sahələrində tanınmış görkəmli alim Naxçıvanın kənd təsərrüfatı məhsullarının müxtəlif ölkələrə ixrac edilməsi haqqında da məlumat vermişdir [4, s. 99]. Türk tədqiqatçısı Kürkçüoğlu da o dövr iqtisadi həyatını təhlil edərkən qeyd edir ki, Naxçıvanda istehsal olunan kənd təsərrüfatı məhsullarının bir qismi yerli əhalinin tələbatını ödəyir, bir qismi isə bazara çıxarılaraq şəhər əhalisinə, o cümlədən də digər

ölkə vətəndaşlarına satılırdı. Naxçıvandan Azərbaycanın digər şəhərlərinə və Yaxın Şərq ölkələrinə duz, pambıq, quru meyvə və balıq göndərilirdi [10, s. 105]. Naxçıvanda dənli bitkilərdən buğda, arpa, çəltik, bostan bitkilərindən qarpız, texniki bitkilərdən pambığın becərəldiyi haqqında məlumatlar vardır.

Monqol işğallarına qədərki dövrdə əkinçiliyin inkişafı sıx suvarma şəbəkəsinə əsaslanırdı. Suvarmanın çayların, kəhrizlərin və quyuların su ehtiyatlarına əsaslanan üç növü mövcud idi. Araz və Kür çayları arasındakı ərazidə çay suvarma növündən geniş surətdə istifadə edilirdi. Suyun əsas hissəsi əkinçiliyin ehtiyaclarının ödənilməsinə yönəldilirdi. Hələ XII-XIII əsrlərdə Naxçıvanda bağların, bostanların və əkinlərin becərilməsində şəhərdən bir qədər kənarda axan Araz və Naxçıvan çayının suyundan, həmçinin kəhriz və axar bulaq sularından istifadə olunurdu. Bu dövrdə Azərbaycan şəhərlərində, yaxın Şərq ölkələrində olduğu kimi, torpağın süni suvarılması da yüksək dərəcədə inkişaf etmişdi [12, s. 54]. R.Məmmədov yazır ki, Naxçıvanda su kəmərinin olması haqqında müəyyən məlumatlara rast gəlinməsədə, şəhərin böyüklüyünü, abadlığını və başqa yaşayış yerində aşkar edilmiş arxeoloji materialları nəzərə alaraq, burada su kəmərinin olması haqqında müəyyən mülahizələr söyləmək olar [12, s. 55].

Naxçıvan diyarında olan əlverişli iqlim şəraiti, münbit torpaq örtüyü, yüksək inkişaf səviyyəsinə çatmış süni suvarma sistemi və əsrlər boyu təşəkkül tapmış zəngin təsərrüfat vərdişləri əhalinin böyük əksəriyyətinin kənd təsərrüfatınının bir çox sahələri ilə məşğul olmasına şərait yaradırdı. Burada əhali suvarma suyuna təlabatın bir hissəsini çeşmələrin və suni yaradılmış göllərin, quyuların hesabına ödəməyə çalışırdı. Çayların olmadığı ərazilərdə yerləşən çeşmələr əkinçilərə suvarma suyuna olan təlabatı qismən də olsa ödəməyə imkan verirdi. Bəzi yerlərdə isə bütün əkin sahələri ancaq bolsulu çeşmələrin hesabına suvarılırdı. Lakin Monqol yürüşləri Azərbaycanda , o cümlədən də Naxçıvanda mövcud olmuş süni suvarma şəbəkəsini xeyli dərəcədə sarsıtmışdı. Şərq ölkələrinin əksəriyyətində olduğu kimi, Azərbaycanda da süni suvarma ölkənin kənd təsərrüfatı üçün həlledici əhəmiyyətə malik idi. Buna görə də su bəndlərinin və digər suvarma qurğularının dağıdılması, bu qurğuları bərpa edə biləcək canlı qüvvələrin kəskin surətdə azalması kənd təsərrüfatının tənəzzülünə, əkinçilik məhsulları istehsalının bir neçə dəfə azalmasına səbəb olmuşdu. Böyük ehtimal ki, buna görə də XIII əsrin sonlarında Azərbaycanda əkin üçün yararlı olan torpaqlann yalnız 10 faizi becərilmişdi [3, s. 47].

Bəhs olunan dövrdə ölkə iqtisadiyyatında əkinçiliklə yanaşı, heyvandarlığın inkişafı da mühüm yer tuturdu. Dünyanın bir çox ərazilərində olduğu kimi Azərbaycanın əlverişli iqlim və münasib təbii-coğrafi şəraiti burada heyvandarlığın inkişafı etdirilməsinə mühüm şərait yaradırdı. Heyvandarlıq kənd təsərrüfatının yeganə sahəsi idi ki, monqol işğalları dövründə geniş surətdə inkişaf etmişdi. Qoyunçuluq, atçılıq, iş heyvanlarının yetişdirilməsi heyvandarlığın mühüm sahələri olmuşdur. İri feodallar yüz minlərlə qoyuna, on minlərlə ata malik idi. Azərbaycan atları xüsusi şöhrət qazanmışdı. Marko Polo yazırdı ki, "burada xeyli əla at vardır, bu atlar Hindistana satılmaq üçün aparılır, onlar çox bahadır" [3, s. 50].

Tarixi əsərlərin verdiyi məlumatlardan belə nəticəyə gəlmək olur ki, əhalinin tələbatı ilə əlaqədar olaraq burada əsasən əkinçiliyin inkişafına diqqət göstərilmişdi. Lakin monqolların heyvandarlığa olan marağı burada, həmçinin qoyun, keçi, at və s. heyvanların saxlanılmasına marağı daha da artırmışdır. Bu zaman Naxçıvan ərazisində xırdabuynuzlu heyvanların bəslənilməsi təsərrüfatın əsas sahəsini təşkil etmişdi. Hətta XIII əsrin 20-ci illərindən başlayaraq Azərbaycanda maldarlıqla məşğul olan əhalinin sayı gəlmə türk-monqol tayfaları hesabına kəskin şəkildə artmışdı. Köçəri maldarlığın artması ölkənin müxtəlif vilayətlərində əkinçiliyin inkişafına maneçilik törətmişdi. Həmin dövrdə maldarlıq təsərrüfatına üstünlük verildiyindən becərilən torpaqlar otlaqlara çevrilmişdi. Köçəri maldarlar bu ölkənin oturaq əkinçi əhalisinə qarşı talançı yürüşlər etmişlər [3, s. 53]. Bu isə yerli əhalinin həyat tərzinə və ilk növbədə kənd təsərrüfatının və əkinçiliyin inkişafına mənfi təsir göstərirdi.

R.Məmmədov Naxçıvan şəhərinin monqolların hakimiyyəti dövründəki vəziyyətindən bəhs edərkən onu şərti olaraq iki mərhələyə ayırmışdır: 1. Şəhərin XIII əsrin sonlarına qədərki Elxan Qazan xanın islahatınadək vəziyyəti; 2. XIV əsrdəki vəziyyəti. Müəllif bu bölgünü onunla əsaslandırır ki, Azərbaycanın bir sıra şəhərlərindən fərqli olaraq Naxçıvan XIII əsrin sonlarından etibarən yenidən yavaş-yavaş dirçəlməyə başlamışdı. Bunun əsas səbəbi isə Naxçıvanın əlverişli coğrafi mövqedə yerləşməsi, zəngin təbii sərvətləri və əsrlər boyu ölkənin həyatında oynadığı mühüm roldan ibarət olmuşdur [12, s. 85].

Tarixçi alim V.Piriyev dövrün görkəmli dövlət xadimi, vəzir, təbib, aqronom Fəzlullah Rəşiddədinin kənd təsərrüfatına həsr etdiyi “Asar və Əhya” (Təsir və dirçəliş) əsərinə istinadən XIII-XIV əsrlərin kənd təsərrüfatını xarakterizə edir və göstərir ki, bəhs olunan dövrün çətinliklərinə baxmayaraq torpağın şumlanması, arata qoyulması, dənli bitkilərin əkini, suvarma və suvarma sistemi, bağ, bostan bitkilərinin becərilməsi, kübrələnməsi, budama, calaq etmə, xəstəliklərə və ziyanvericilərə qarşı mübarizə kimi təsərrüfat həyatı ilə məşğulluq bu bölgədə davam etdirilirdi. Həmçinin, Naxçıvanın iqlim şəraitinə uyğun olaraq, dənli bitkilərdən buğda, arpa, çəltik, bostan bitkilərindən qarpız, texniki bitkilərdən pambığın becərildiyi haqda məlumatlar verilir və göstərilir ki, əhali maldarlıq, arıçılıqla məşğul olur burada yağ, bal və digər məhsullar istehsal olunurdu [17, s. 51].

Qeyd etmək lazımdır ki, bu təsərrüfat formaları, bir-birindən təsərrüfat sahələrindən təcrid olunmuş formalar deyildir. Bunlar kənd təsərrüfatının müəyyən qədər bir-birilə əlaqələndirilmiş sahələridir. Bu sahələr həmişə bir-birini tamamlamış və bir-birini şərtləndirmişdir. Bölgə ərazisində istehsal olunan taxılçılıq, bağ-bostan, meyvəçilik, pambıqçılıq, heyvandarlıq və s. məhsullar əhalinin zəruri tələbatını ödəməklə yanaşı, Azərbaycanın digər bölgələrinə və xarici ölkələrə də ixrac edilmişdi.

XIII əsrin ortalarında Hülaku dövlətinin yaradılması və tədricən mərkəzi hakimiyyətin qüvvətlənməsi təsərrüfatda müəyyən canlanmaya səbəb olmuşdu. Vergi siyasəti nisbətən müəyyənləşmiş və mərkəzi idarə sistemi yaranmışdı. F.Rəşidəddinin yazdığı kimi, “əksər vilayətlərin rəiyyəti cəlayi-vətən olub, yad vilayətlərdə özləri üçün ev-eşik düzəltdilər. Şəhərlər və kəndlər boşaldı. Didərgin düşmüş əhalini öz sabiq yerlərinə qaytarmaq üçün onlara müxtəlif

işgəncələr verildi. Dövrün məlumatına görə şəhərdə qalan adamların əksəriyyəti evlərin qapılarını daş ilə hörmüş və ya baca açmışdılar. Onlar vergi yığan məmurların qorxusundan evlərinin damlarından o tərəf bu tərəfə qaçırdılar. Kişiləri ələ keçirə bilmədikdə, onların qadınlarını tutub qoyun sürüsü kimi qabaqlarına qatıb məhəllə-məhəllə vergi toplayan məmurların yanına aparırdılar. Onları ayaqlarından asıb döyürdülər" [16, s. 168].

XIV əsrin müəyyən zamanlarında kənd təsərrüfatında baş vermiş nisbi yüksəlişə baxmayaraq, kənd təsərrüfatı istehsalının həcmi XIII əsrin əvvəllərindəki səviyyəyə çatmadı. Bir çox vilayət və bölgələrdə kənd təsərrüfatından əldə olunan gəlirlər təxminən 8-10 dəfə azalmışdı. Yuxarıda qeyd edildiyi kimi, həmin dövrdə heyvandarlıq kənd təsərrüfatının yeganə sahəsi hesab olunurdu ki, monqol işğalları dövründə bu sahə geniş surətdə inkişaf etmişdi. Lakin heyvandarlığın inkişafı türk-monqol mənşəli köçəri tayfaların miqrasiyası ilə əlaqədar idi [3, s. 50].

XIV əsrin 70-ci–XV əsrin 30-cu illərində Azərbaycanda digər sahələrdə olduğu kimi kənd təsərrüfatının inkişafında da çətinliklər yaranmışdı. Bu, ölkənin həyatında baş vermiş ictimai-iqtisadi, hərbi və siyasi hadisələrlə sıx bağlı idi. Lakin XV əsrin 30-80-ci illərində ölkədə vəziyyətin qismən sabitləşməsi tənəzzül prosesinin dayandırılmasına səbəb olmuşdu. Cahanşahın, Uzun Həsənin və Sultan Yaqubun keçirdiyi islahat kənd təsərrüfatının da yüksəlişinə müəyyən qədər şərait yaratmışdı [3, s. 195].

Naxçıvan diyarının təsərrüfat həyatında əkinçiliklə, maldarlıqa yanaşı, bağçılıq və bostançılıq da mühüm yer tuturdu. Bu diyarın təbii iqlim şəraiti bağçılıq və bostançılığın inkişafı üçün əlverişli şəraitə malik idi. Bütün dövrlərdə olduğu kimi XIII-XV əsrlərdə də Naxçıvanın təsərrüfat həyatında kənd təsərrüfatının digər sahələri ilə yanaşı, bağçılığın inkişaf etdirilməsi əhalininin maddi ehtiyaclarının ödənilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvanın təbii coğrafi şəraiti burada bir çox meyvə növlərinin yetişdirilməsinə imkan yaradırdı. Bu baxımdan da öz dadlı-ləzzətli meyvələri ilə Azərbaycanın digər bölgələrində və Yaxın Şərqdə şöhrət tapmışdı. Lakin bəhs olunan dövrlərdə də bölgədə gedən ictimai-siyasi proseslər çox zaman buna ciddi mane olurdu. Burada gedən hərbi-siyasi proseslər nəticəsində bağların bir qismi dağılıb məhv olurdu [11,107]. Qeyd etmək lazımdır ki, Ordubad bağlarında yetişdirilən meyvələrin -əriyin, şaftalının dünyada misli-bərabəri yoxdur. Abutalıbı, badamı, şalağı, lumu, ərik, ağ ərik, növrəste, bal yarım ərik, şaftalı, nazlı, güştü, hulu, səlamu, şərəlli, tərəlli, qərəlli, tüklü şaftalı, tüksüz şaftalı və s.

Orta əsrlər dövründən Naxçıvan, Ordubad, Azad, vilayətləri mühüm bağçılıq və üzümçülük bölgələri hesab olunurdu. Naxçıvanda, o cümlədən də Ordubad bölgəsində üzümçülüyün tarixi ən qədim dövrlərə gedib çıxır. Hələ çox qədimdən burada üzümdən kişmiş, mövüc, bəhməz və sair məhsullar hazırlayaraq qonşu ölkələrə ticarət məqsədi ilə aparıblar. Qeyd etmək olar ki, bağçılıqda üzümçülük təsərrüfatın ən geniş yayılmış sahəsi idi. Üzümçülük və bağçılığın yüksək dərəcədə inkişaf etməsi müxtəlif növ bağçılıq məhsulları ilə ticarətin inkişafı üçün əlverişli şərait yaradırdı. Üzümçülük Naxçıvanın kənd təsərrüfatında əsas yerlərdən birini tuturdu.

Monqol işğalı ərəfəsində və ondan az sonra Azərbaycanı şəxsən gəzmiş Yaqut əl-Həməvi bu ölkənin hədsiz sərvətlərindən, saysız hesabsız meyvə ağaclarından danışır, "mən heç yerdə buradakı qədər bağ, bu qədər çoxlu çay və bulaq görməmişəm" - deyir. Mənbələrin məlumatından görünür ki, Azərbaycanın Təbriz, Xoy, Naxçıvan, Bərdə, Urmiya, Unar, Uşnu, Beyləqan və başqa yerlərində xeyli iri bağçılıq təsərrüfatları var idi. Buranın biri digərindən fərqli olan təbii şəraitində üzüm, alma, armud, ərik, şaftalı, gilas, gavalı, heyva, fındıq, qoz, əncir, portağal, limon, zeytun, badam, şabalıd, zoğal, alça, tut və s. yetişdirilirdi. Məzə kimi başqa ölkələrə aparılan Naxçıvan üzümü, "mausil" növlü Təbriz, Səlmas və Xoy ərikləri bütün şərqdə özlərinin əla dad keyfiyyətlərinə görə məşhur idi. "Əcaib əd-dünya" əsərində olan məlumata görə, dünyanın heç bir yerində Naxçıvan üzümü qədər dadlı üzüm yox idi [2, s. 335]. Bəhs olunan dövrdə Azad bölgəsində hazırlanmış şərablar geniş şöhrət qazanmışdı. Üzümçülüyün inkişafı burada şərabçılığın da inkişafı üçün şərait yaratmışdır. Naxçıvan meşələrində, xüsusilə bu tümənə daxil olan Qafan meşələrində zoğal, ərğavan çiçəyi bitirdi. Naxçıvandan Sürməliyə kimi geniş ərazidə "qırmız" adlı boyaq bitkisinin bitdiyi haqda məlumatlar vardır. Ordubad ərazisi bağçılığın, pambıqçılığın, dənli bitkilərin və üzümçülüyün məskəni hesab olunurdu [17, s. 51].

Bağlarda müxtəlif növ meyvələr - alma, armud, üzüm, ərik, şaftalı, heyva, tut, albalı, gilənar, badam, limon və s. becərilirdi. Təbii-coğrafi şəraitindən asılı olaraq münbit əkin sahələrində müxtəlif növ bostan-tərəvəz məhsulları yetişdirilir, böyük meyvə bağlarından xeyli, gözəl meyvələr əldə olunurdu. Bu dövrdə Naxçıvan bölgəsində meyvəçiliyin ən geniş yayıldığı bölgə Ordubad və onun kəndləri olmuşdur. Təbriz bazarlarında Ordubad meyvələri xüsusi şöhrət qazanmışdı. R.Məmmədov apardığı tədqiqatlara əsaslanaraq yazır ki, Naxçıvanda becərilən müxtəlif çeşiddə meyvələr yüksək keyfiyyətə malik idi. Təsadüfi deyildir ki, o dövrdə Naxçıvanda becərilən gözəl üzümə dünyanın heç bir yerində təsadüf etmək mümkün deyildir. Şəhərdə çoxlu üzümlüklərin və üzüm növlərinin olmasını sonralar Naxçıvanda olmuş bir sıra səyyahlar da qeyd etmişlər [12, s. 54].

XIII əsrdən Naxçıvan diyarının Ordubad bölgəsində "Əbutalibi" və "Badamı" əriyi yetişdirilirdi ki, bu ərik növü, nəinki Azərbaycanda, həmçinin bölgəyə yaxın digər dövlətlərdə də öz dadı ilə tanınmışdı. Orta əsrlər dövründə yaşamış bir sira müəlliflərin, o cümlədən də səyyahların Ordubad bağları və orada yetişdirilən meyvələr və üzüm növləri haqqında maraqlı məlumatları vardır. Burada yetişdirilən "Əlidərəsi" və "Kəsəyi" adlı üzüm növünün çox məhsuldar və dadlı üzüm olduğu haqda məlumat verir və qeyd edir ki, bu cür növlərə, nəinki Naxçıvan, hətta Azərbaycanın digər yerlərində belə rast gəlmək mükün deyil [13, s. 97].

Hələ XIII əsrdən tanınan "Badamı" əriyinin də vətəni məhz Ordubad olmuşdur. Badami adı ilə tanınan ərik daha çox Əndəmic və Aza kəndlərindəki meyvə bağlarında yetişdirimişdir. Həmçinin bu ərik növü Naxçıvanın digər bölgələrinə də yayılaraq Şərur rayonunun Xanlıqlar, Dərvişlər, Babək rayonunun Vayxır, Sirab, Kültəpə kəndlərində də yetişdirilməkdədir. Həmdullah Qəzvini yazır ki, Ordubad bağlar arasında qərq olmuş mahal şəhəridir. Burada əla

növ üzüm, dənli bitkilər və pambıq becərilir. Şəhərin suyu Qaban (Qafan) dağlarından gəlir, artıq qalan su Araz çayına tökülür [ 20, s. 25; 17, 54].

Məlumdur ki, monqolların hakimiyyəti dövründən başlayaraq monqol feodalları Azərbaycanın zəngin torpaqlarının müəyyən hissəsini öz aralarında bölmüşdülər. Azərbaycan feodal dövlətlərində monqol hökmdarlığı dövründə formalaşmış torpaq mülkiyyəti növləri (divani, xassə, mülk, vəqf) mövcud idi. Hülakülər dövründə torpaqlar əsasən dörd kateqoriyadan ibarət idi: “Divan” (dövlətə məxsus olan torpaqlar), “İncu”, “Xass” və yaxud “Xass incu” (Xana və onun ailəsinə məxsus olan torpaqlar), “Mülk” (yerli feodallara aid torpaqlar), “Vəqf” (dini idarələrə, məscidlərə, mədrəsələrə aid torpaqlar). Naxçıvan ərazisi bu kateqoriyadan “mülk” torpaqları sırasında hesab olunurdu. Belə ki, Qazan xanın vəziri Fəzlullah Rəşidəddinin Azərbaycanda olan 8000-10000 hektar torpaq mülkündən təxminən 1000 hektarı Naxçıvanda idi [14, s. 88].

Məlumdur ki, orta əsrlərin hər dövründə dövlətin apardığı vergi siyasətinə əsasən əhalidən gəlir vergisi alınırdı. Tarixi mənbələr göstərir ki, əhalidən müxtəlif adlarda vergilər toplanırdı. Bu vergilərin yığılmasında da müəyyən çəki vahidlərindən istifadə olunuduğu şübhə doğurmur Təbii ki, bu vergi və mükəlləfiyyətlər də əhalinin həm kənd təsərrüfatının inkişafına olan marağını azaldır, həm də müflisləşməsinə daha çox təsir göstərirdi. Ə.Əlizadə orta əsrlərə aid məlumatlara əsaslanaraq qeyd edir ki, tağar monqol xanları zamanında ikili məna kəsb edirdi: ərzaq məhsulu və Təbriz çəkisilə 100 mana bərabər olan ölçü vahidi. Müəllif sözlərinə onu da əlavə edir ki, Katmerə görə, tağar monqollarda indi də mövcuddur və 80 funta bərabər olan düyü kisəsi deməkdir. Nadir hallarda bu sözün önünə sar (baş) kəlməsi əlavə olunur ki, bu isə (sar tağar) məlum olduğu kimi monqolların hakimiyyəti zamanı vergi olaraq bütün əhalidən alınırdı [19, s. 230].

XIV əsrdə də Elxanilər dövlətində əhalidən bir sıra vergi və mükəlləfiyyətlər toplanılırdı. Vergilərin miqdarında və yığılmasında özbaşınalıq hökm sürürdü. Həmin dövrdə Naxçıvanda əhali bir sıra digər vergilər, o cümlədən qopçur, xərac, tamğa, nüzl, bigar, cizyə, əvariz, təğar, ülufə, mərsumu və s. adda vergilər ödəmişlər. XIV əsrin 40-cı illərində Hülakülər tərəfindən Naxçıvan nahiyəsində yığılan vergilərin ümumi məbləği ildə 113 min dinar olmuşdur [14, s. 89]. Monqollar əvvəlki vergiləri saxlamaqla yanaşı, yeni vergilər (qopçur, tamğa, kalan) təyin etmişdilər. Hələ 1254-cü ildə Azərbaycanda 10 yaşından 60 yaşınadək bütün kişi cinsindən olanlar siyahıya alınmışdı. Vergi və mükəlləfiyyətlərin sayı 40-dan artıq idi. XIII əsrin sonunda Keyxatu xan xəzinənin boşalmasının qarşısını almaq üçün çao adlanan kağız pulları dövriyyəyə buraxsa da, islahat özünü doğrultmadı. Hülakü dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək üçün Qazan xan bir sıra islahatlar keçirdi. Bu islahatlar əhalinin istismarını nizama salmaq, dövlət xəzinəsinə gəlirlərin davamlı axınını təmin etmək, bu sahədə monqol əyanlarının özbaşınalığına son qoymaq və sıravi monqollara torpaq sahələri verməklə onların yaşayışı üçün şərait yaratmaq məqsədi güdürdü. Qazan xanın islahatlarının təşkilində və həyata keçirilməsində vəzir, tarixçi alim, həkim Fəzlüllah Rəşidəddinin rolu böyük olmuşdur. Tədqiqatçıların fikrincə bu islahatlar sayəsində hakimiyyət ida-

rəçilik mexanizmlərinin səmərəliliyini yaxşılaşdıraraq ölkədə iqtisadi tərəqqini, stabil inkişafı təmin etmiş oldu. İslahatların nəticələri özünü çox gözlətmədi, ölkədə arzu olunan dinclik və siyasi stabillik yarandı. Ticarət və kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait yaradan ədalətli vergilər tətbiq olundu. 1297-1304-cü illər ərzində həyata keçirilən islahatlar digər şəhərlərlə bərabər, Naxçıvan üçün də əhəmiyyətli olmuşdu [3, s. 64]. Qazan xanın islahatından sonra dövlət torpaq fondu hesabına mülk və vəqf torpaqlarının artması prosesi sürətləndi. XIV əsrin birinci yarısında iri feodalların əlində geniş torpaq sahələrinin cəmləşməsi prosesi gücləndi. Boş qalmış sahələrin istifadəsi və abadlaşdırılması bu işdə az rol oynamadı. Lakin bu proses əsasən xırda torpaq mülkiyyətçilərinin iflası hesabına gedirdi [3, s. 49].

Monqol işğalları dövründə azad kəndlilərin torpağa təhkim edilməsi prosesi gücləndi. Qazan xanın 1303-cü ildə verdiyi fərmana əsasən torpaq mülkiyyətçiləri yaşayış yerindən qaçmış kəndliləri 30 il ərzində geri qaytara bilərdilər. Torpaq sahiblərinə başqa sahibkarın mülkündən qaçmış kəndlini qəbul etmək qadağan olunmuşu. Bu kəndlilərin torpaq sahibinə deyil, torpağa təhkim olunması haqqında ilk hüquqi sənəd idi. Monqol işğalı dövründə kənd icmaları da dövlətdən asılı vəziyyətə salınmışdı [3, s. 49]. Məhəmməd ibn Hinduşah Naxçıvani öz əsərində Qazan xan islahatını təbliğ edir, ölkəni iqtisadi tənəzzüldən qurtarmaq üçün yollar axtarır və təkliflər irəli sürürdü [15, s. 12].

XIII-XIV əsrlərdə Azərbaycan, o cümlədəm də Naxçıvan bölgəsinin əhalisi vergi və mükəlləfiyyətlərin dəhşətli ağırlığı altında əziyyət çəkmişdlər. Vergilərin yığılması prosesində mövcud olan özbaşınalıqlar bu zülmü daha dözülməz edirdi. Həyat şəraitinin ağırlaşması zəhmətkeşlərin kütləvi şəkildə yaşayış yerlərini tərk etməsinə səbəb olurdu. Dözülməz zülm nəticəsində Naxçıvanda mövcud olan evlərin 5/6 hissəsi boşalmışdı Baş verən müxtəlif yoluxucu xəstəliklər, məhsulsuzluq əhalinin həyat şəraitini xeyli ağırlaşdırmışdı [19, s. 110].

Qazan xanın vergi islahatı ilə vergilərin növləri, toplama üsulları və vaxtı dəqiqləşdirilmişdi. Həmin dövrdən qanunsuz vergilərin yığılması qadağan olunmuş, vergi toplanmasının iltizama (icarəyə) verilməsi üzərinə nəzarət qoyulmuşdu. XIV əsrin 30- cu illərində ölkənin iqtisadi vəziyyəti yenidən pisləşməyə başladı. Mənbələrin verdiyi məlumata görə Çobani feodalları ölkədə mümkün qədər daha çox dağıntı törədir, əhalinin əmlakını müsadirə edir və talayırdılar. Camaat əmlakını, evlərini, kəndlərini tərk edib qaçırdılar. Onların əkinini, var-yoxunu vəhşi və zalım qaniçənlər yeyirdilər. Yerli oturaq təsərrüfatı aradan götürməyə cəhd göstərən Çobanilər öz ağalıqları dövründə rəiyyəti amansız istismar edirdilər [17, s. 93].

Çobani feodallarının ağalığına son qoyulması və Azərbaycanda Cəlairilər dövlətinin yaranması təsərrüfatda müəyyən canlanmaya səbəb olmuşdu. Bu isə ən başlıca olaraq Cəlairi Şeyx Uveysin həyata keçirdiyi islahatların nəticəsi idi. Şeyx Üveysin dövründə ölkədə abadlıq işləri aparılmış, suvarma kanalları çəkilmiş, kənd təsərrüfatının və heyvandarlığın inkişafına diqqət artırılmışdı. Lakin Şeyx Üveysin islahatları iqtisadiyyatda müəyyən canlanma yaratsa da, XIV əsrin son onilliklərində Əmir Teymur və Toxtamışın Azərbaycana aramsız yürüşləri təsərrüfatın bütün sahələrinə mənfi təsir göstərdi [1, s. 346].

XIV əsrin sonu-XV əsrin əvvəllərində Naxçıvan bölgəsi Qaraqoyunluların Sədlu əmirləri tərəfindən idarə olunmuşdu. Onların dövlətin idarə edilməsindəki nüfuzlarını nəzərə alsaq, güman etmək olar ki, Naxçıvan tüməni də onların nəzarəti altında olmuşdu. Çünki XV əsrin 20-ci illərində divan torpaqları kimi Naxçıvanın Qara Yusifin oğlanları tərəfindən idarə olunduğu məlum olur. Bu dövrdə Naxçıvana xüsusi diqqət yetirilməsinin mühüm səbəblərindən biri də Qaraqoyunluların əsas xəzinələrindən birinin məhz Naxçıvan yaxınlığındakı Əlincə qalasında saxlanması idi. Qaraqoyunluların hakimiyyəti dövründə Qazi İmadəddin Əlincə qalasına yiyələndikdən sonra ətraf yerlərdə yaşayan türk və tərəkəmə tayfalarını qalaya yığmış, əhalidən toplanan ülufə və mərsumu (vergi) özü müəyyənləşdirmişdi [14, s. 252].

Naxçıvanın əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və əsrlər boyu ölkənin həyatında oynadığı mühüm rol onun yenidən dirçəlməsi üçün xüsusi zəmin yaratmışdı. Uzun Həsənin islahatları şəhərlərin yüksəlişini təmin edən rəsmi tədbir idi. Ağqoyunluların hakimiyyətə gəlməsi ilə ölkənin iqtisadi vəziyyətində müəyyən dirçəliş baş verdi. Ağqoyunlu Uzun Həsən bütün Azərbaycan torpaqlarını birləşdirən güclü dövlətin yaranması siyasətini həyata keçirirdi. O, ölkə iqtisadiyyatının yüksəlməsi üçün əhalinin vəziyyətini yaxşılaşdırmaq, kənd təsərrüfatı sahələrini inkişaf etdirmək üçün səy göstərirdi. Uzun Həsən hakimiyyəti dövründə ölkədə yığılan vergilərin həcmini dəqiqləşdirmiş, əhali arasındakı mübahisə və şikayətlərə aid “Qanunnamə” tərtib etdirmişdi. Günahkarları sərt şəkildə cəzalandırmağı tələb edən Sultan “Qanunnamə”ni icra edilmək üçün dövlətin bütün vilayətlərinə, o cümlədən Naxçıvana da göndərmişdi [9, s. 108].

Bəhs olunan dövrdə də kəndlilər və sənətkarlar 40-dan çox vergi və mükəlləfiyyət icra edirdilər. Malcəhət adlanan məhsul vergisi rəiyyəti varyoxdan çıxarırdı. Malcəhət Uzun Həsənin “Qanunnaməsinə” əsasən məhsulun 1/5 hissəsini təşkil edirdi. Kəndlilər sudan istifadə müqabilində bəhrə adlı vergi ödəyirdi. Mənbələrin verdiyi məlumata görə, bu dövrdə Naxçıvan əhalisi müxtəlif mükəlləfiyyətlər daşıyır və 30-dan artıq vergi ödəyirdi. Bunların arasında malucəhət, üşr, cizyə, koarçur, xanesümar, ələfə, səd-yek, səd-dü, rüsuli ümmal, novruzi, peşkəş, savari, şikar, dövlət və feodalların mənafeyinə əmək mükəlləfiyyətləri var idi [12, s. 120]. Malucəhat vergisi Naxçıvanda əsasən bəhrə adlanırdı. Bu verginin miqdarı məhsulun onda birdən üçdə bir hissəsinə qədər olurdu. Malucəhət (bəhrə) bir qayda olaraq, məhsulla - buğda, arpa, çəltik, pambıq, ipək və s. ilə ödənilirdi [23, s. 266].

Vəqf torpaq və mülkləri dini müəssisələrin-məscid, mədrəsə və xanəgahların ixtiyarına verilir, əldə edilən gəlirin bir hissəsi onlara sərf olunurdu. Bu torpaqlardan hökumət üçün vergi yığılmır, vəqf əmlakı toxunulmaz sayılırdı. Azərbaycanda iqta torpaq mülkiyyəti daha çox XIII-XIV, soyurqal isə XIV əsrin ikinci yarısından, Cəlairilərin hakimiyyəti dövründən tədricən meydana gəlmiş və XV əsrdən daha genişlənmişdir. Özündən əvvəlki iqta institunun inkişafı nəticəsində yaranan soyurqal institutu Azərbaycanda olan feodal mülkiyyətinin əsas növlərindən biri idi və xidmət müqabilində verilən torpaq mülkiyyəti formasıdır. Soyurqal Ağqoyunluların hakimiyyəti dövründə daha

çox yayılmışdı. Mənbələr yazır ki, hələ bu günə qədər Ağqoyunlu hökmdarı Rüstəm Mirzə qədər soyurqal paylayan ikinci bir hökmdar olmamışdır. Soyurqal sahibləri hökmən padşahın hərbi və ya mülki xidmətində olmalı, onun mənafeyindən ötrü çalışmalıydı. Soyurqal sahibləri iqta sahiblərinə nisbətən öz torpaqlarında tam müstəqil idilər və dövlət məmurlarının həmin torpaqlardan vergi yığmalarına nəinki yol verilir, hətta məmurların o torpaqlara yaxın düşmələri belə qadağan edilirdi [15, s. 255].

İ.Petruşevski göstərir ki, soyurqal dövlət tərəfindən divan torpaqları hesabına paylanılırdı. Onun verilməsi üçün əyanların, tayfa və əyalət əmirlərinin dövlət qarşısında hərbi-inzibati qulluq daşıması gərək idi. Hərbi və mülki xidmət müqabilində paylanmış bu mülklər feodalların irsi istifadəsində olurdu. Ancaq soyurqal torpaqları hərbi-inzibati qulluq əyanlarına yeni üstünlüklər və imtiyazlar verirdi: bu əyanlar soyurqal torpaqları üzərində inzibati və məhkəmə hakimiyyəti səlahiyyəti alır, dövlət xəzinəsinə vergi verməkdən azad olunurdular. Vergi toxunulmazlığı hüququ soyurqal sahibinin zənginləşmə vasitəsi idi [ 23, s. 145-153].

Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, XIV əsrdən məlum olan bayramlıq vergisi novruz və qurbanlıq zamanı kəndlilərdən feodalların xeyrinə toplanırdı. Dövlət məmurları tərəfindən orta əsrlərdə “novruzi” adlı vergi növünün toplanması da məlumdur. Bu da Novruz bayramı zamanı toplandığından məhz belə adlanırdı [8, s. 25]. Vergilərin ağırlığı hər zaman olduğu kimi XIII-XV əsrlərdə də əhalinin üzərinə düşürdü. Onlar hər zaman olduğu kimi vergi verməli və mükəlləfiyyətlər daşımalı idilər. Bunların ən ağırı malcəhat-bəhrə, baxraçe, ixracat, xariciyat, şiltaqat, avarizat, alafe, ulufe, günəlgə, biyar, peşkəş, çıraqlıq, tərh, çuvallıq və s. idi. Çox vaxt bu adlar altında məhsulun yarıdan çoxu rəiyyətin əlindən alınırdı. Bu isə təbii ki, əhalinin vəziyyətini daha acınacaqlı hala salırdı.

XV əsrdə Azərbaycanın, o cümlədən də Naxçıvanın kənd təsərrüfatının müxtəlif sahələri qeyri-bərabər səviyyədə inkişaf etmişdi. Əsrin əvvəllərində viranedici müharibələr və feodal çəkişmələrinin davam etməsi kənd təsərrüfatının inkişafına əngəl törədirdi. Teymuri hakimlərinin yerli əhali hesabına hərbi hissələri təchiz etmək sahəsindəki soyğunçu tədbirləri, Cəlairilərlə Qaraqoyunlular arasında baş verən hərbi toqquşmalar geniş əhali kütlələrini müflisləşdirmişdi.

Beləliklə, nəticə olaraq qeyd etmək olar ki, lakin dövrün çətinliklərinə baxmayaraq əhali kənd təsərrüfatının inkişafına xüsusi əhəmiyyət vermişdir. Burada əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq və əhalinin zəruri təlabatını ödəmək üçün digər kənd təsərrüfatı məhsulları istehsal edilmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (Akademik Z.Bunyadov və t.e.d. Y.Yusifovun redaktəsilə). Bakı, Azərnəşr, 1994, 688 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. " Elm". 2007. 608 səh. - 24 səh. illüstrasiya.
3. Azərbaycan tarixi: 7 cilddə, III c. Bakı, Elm, 1999, 584 s.

4. Bakuvi Ə. Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar (Abidələrin xülasəsi və qüdrətlihökmdarın möcüzələri). Bakı: Şur, 1992, 176 s.
5. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s. Azərbaycan tarixi: 7 cilddə, I c. Bakı: Elm, 1998, 476 s.
6. Evliya Çelebi. Seyahatnamesi. Sadeleştiren, tevsiktemel kuran Necati Aktaş, baskıya hazırlayan Mümin Çevik: 10 cildde, I-II c., İstanbul: Üçdal Neşriyat, 1985, 767 s
7. Əliyeva E. XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Naxçıvan xanlığında əkinçilik. // Tarix və onun problemləri. 2009, № 1-2, s. 101-106
8. Əsgər Əhməd. “XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti”. Bakı-2012, “Elm” nəşriyyatı, 372 səh.
9. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: Elm, 1983, 152 s.
10. Kürkçüoğlu E. Nahçıvan tarihi (V-XV yüzyıllar). Erzurum: Guneş Vakfı Yayınları, 2007, 134 s.
11. Quliyev Ş. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi // AEM, V buraxılış. Bakı: Elm, 1985, s. 18-47
12. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
13. Muradov V. Naxçıvan Diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri). Bakı: Elm, 2017, 264 s.
14. Naxçıvan tarixi: 3 cilddə, I c. Naxçıvan, Əcəmi, 2014, 528 s.
15. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 280 s.
16. Piriyev V. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə. Bakı: Elm, 1978, 162 s.
17. Piriyev V. “Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı: Müəllim, 2004, 126 s.
18. Zeynalov İ. XIX əsrin sonu – XX əsrin birinci yarısında Azərbaycanın Naxçıvan bölgəsində əkinçilik təsərrüfatı (taxılçılıq). // Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər (İctimai Elmlər Seriyası). 2016, № 5, s. 37-44.
19. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: 1956, 420 с.
20. Йакут ал-Хамави. Муджам ал-булдан (сведения об Азербайджане). Хамдуллах Казвини. Нузхат ал-кулуб (материалы по Азербайджане). Баку: Элм, 1983, 68 с
21. Мамедов С. Исторические связи Азербайджанского и Армянского народов во второй половине XVII – первой трети XVIII в. Баку: Элм, 1977, 263 с.
22. Мамедов С.А. Азербайджан по источникам XV-первой половины XVIII вв. Баку: Элм, 1993, 240 с.
23. Петрушевский П. Государства Азербайджана в XV веке // Сборник статей по истории Азербайджанской ССР, 1949, с. 153-214.
24. Рахмани А.А. Азебайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 240 с.

25. Статистическое описание Нахичеванской провинции. Составитель В.Григорьев. Санктпетербургъ: Типография Департамента Внешней Торговли, 1833, 284 с.

**РЕЗЮМЕ**

**САРА ГАДЖИЕВА, НИЛЮФАР АГАЕВА**

**СЕЛЬСКОЕ ХОЗЯЙСТВО НАХЧЫВАНА В XIII-XV вв.**

В статье рассматривается аграрная ситуация в Нахчыване в XIII-XV вв. Было отмечено, что, несмотря на трудности эпохи, население придает большое значение производству сельскохозяйственной продукции. Развитие сельского хозяйства всегда было важным средством в удовлетворении материальных потребностей населения, как и всегда.

**Ключевые слова:** Нахчыван, сельское хозяйство, земледелие, животноводство, садоводство и огородничество.

**SUMMARY**

**SARA HAJIYEVA, NILUFAR AGHAYEVA**

**THE AGRICULTURE IN NAKHCHIVAN AT XIII-XV CENTURIES**

The article examines the agricultural situation in Nakhchivan during the XIII-XV centuries. It was noted that, despite the difficulties of the era, the population attached great importance to the production of agricultural products. The development of agriculture has always been an important role in paying the material needs of the population as it always was.

**Key words**: Nakhchivan, agriculture, farming ,cattle breeding, gardening and horticulture

*(Akademik Hacı Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*